შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი

iyul, 2023

# İbtidai pillə müəllimləri üçün test

## Riyaziyyat

### Təlimat

Qarşınızdaki imtahan testinin elektron bukletidir.

Test iki hissədən ibarətdir – peşə biliyi və akademik qabiliyyət.

Testin maksimal xalı – 53-dir.

Testdə verilmiş tapşırıqlar format baxımından müxtəlifdir. Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra cavabı seçin və yazın.

**Nəzərə alın:**

- Əgər düzgün cavabla bərabər səhv cavabı da qeyd etsəniz, xal ala bilməyəcəksiniz.

Testdə işləmək üçün sizə 4 saat vaxt verilir. Uğurlar arzulayırıq!

# Fənn biliyi

(1) **1.** Bir ədəd kibrit çubuğunun uzunluğu 4-4,5 sm-dir. Aşağıdakılardan hansı hər birinin uzunluğu kibrit çubuğunun uzunluğuna bərabər olan 3 milyon belə parçadan ibarət olan sınığın uzunluğuna bərabər ola bilər?

ა) 118 km;

ბ) 127 km;

გ) 136 km;

დ) 145 km.

(1) **2.** Bərabər hissələrə bölünmüş ədəd oxunda işarələnmiş $A, B$ və $C$ nöqtələrindən $A$ və $B$-nin koordinatları şəkildə göstərilmişdir.  $C$ nöqtəsinin koordinatı nəyə bərabərdir?




ა) $\frac{2a+b}{3}$

ბ) $\frac{a+2b}{3}$

გ) $\frac{b-a}{3}$

დ) $\frac{b+a}{3}$

(1) **3.** Hər üç təpəsi verilmiş çevrədə yerləşən istənilən üçbucaq üçün aşağıda sadalananlardan hansı doğrudur?

Verilmiş çevrənin diametrindən:

ა) üçbucağın yalnız hansısa bir tərəfi azdır;

ბ) üçbucağın hansısa iki tərəfi azdır;

გ) üçbucağın hər üç tərəfi azdır;

დ) üçbucağın heç bir tərəfi az ola bilməz.

(1) **4.** $x, y, z$ və $t$ bir-birindən fərqli elə natural ədədlərdir ki, $x = \frac{z}{y}$ və $t = \frac{x}{2}$. Bu ədədlərdən hansı qalan üçünə qalıqsız bölünür?

ა) $x$

ბ) $y$

გ) $z$

დ) $t$

(1) **5.** Dairəvi diaqramda şəhərlərdən birinin əhalisinin milliyətə əsasən bölgüsü təqdim olunmuşdur. Şəhərdə yunan millətinin sayı 72 minə bərabərdir, türk millətinin sayı isə yunan millətinin sayından 1,5 dəfə çoxdur. Şəhərdə cəmi nə qədər əhali var?




ა) 360 min;

ბ) 400 min;

გ) 480 min;

დ) 600 min.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **6.** Natural ədədlərin ardıcıllığı haqqında məlumdur ki:

- Əgər ardıcıllığın hər hansı həddi 12-nin mislidirsə, onda onun növbəti həddi də 12-nin mislidir.
- Ardıcıllığın ilk 10 həddindən yalnız 4 həddi 12-nin mislidir.

Aşağıda sadalananlardan hansı **qeyri-mümkündür**?

ა) Bu ardıcıllığın səkkizinci həddi 18-in mislidir;

ბ) Bu ardıcıllığın doqquzuncu həddi 18-in mislidir;

გ) Bu ardıcıllığın üçüncü həddi 12-nin misli deyil;

დ) Bu ardıcıllığın yeddinci həddi 12-nin misli deyil.

(1) **7.** Elenenin oxuduğu sinifdə bütün şagirdlər müxtəlif boydadırlar. Bu sinifdəki ən alçaq boylu 15 şagirddən yalnız 3-ü Elenedən hündür, ən uca boylu 10 şagirddən isə yalnız 1-i Elenedən alçaqdır. Elenenin sinfində cəmi neçə şagird var?

ა) 20

ბ) 22

გ) 24

დ) 26

(1) **8.** Paraleloqramın bucaqlarından birinin ölçüsü 89°-dir. Bu paraleloqramın hər hansı üç bucağının ölçülərinin cəmi ilə hər hansı iki bucağının ölçülərinin cəmi arasındakı fərqin qiyməti sadalananlardan hansına bərabər **ola bilməz**?

ა) 85°

ბ) 87°

გ) 89°

დ) 91°

(1) **9.** Tedo baba birinci gün öz torpaq sahəsinin üçdə bir hissəsini şumladı. Tedo baba ikinci gün **qalan** torpağın hansı hissəsini şumlamalıdır ki, bu iki günlük iş nəticəsində torpaq sahəsinin yarısı şumlanmış olsun?

ა) Altıda birini;

ბ) Beşdə birini;

გ) Dörddə birini;

დ) Üçdə birini.

(1) **10.** Venesiyadan Romaya dəmir yolu ilə məsafə 522 km-dir. Saat 14:30-da Romadan Venesiya istiqamətində sabit 60 km/saat sürətlə hərəkət edən yük qatarı çıxıb. 6 saatdan sonra Venesiyadan çıxan sabit sürətlə qarşıdan gələn sərnişin qatarı onu 18:15-də qarşılayıb. Sərnişin qatarının sürəti yük qatarının sürətindən nə qədər çoxdur?

ა) 10 km/saat;

ბ) 12 km/saat;

გ) 14 km/saat;

დ) 16 km/saat.

## Göstəricilərin analizi

Avqust ayında konserv zavodu müxtəlif qiymətlərlə müxtəlif meyvələr sifariş edib. Konserv zavodunun avqust ayında qəbul etdiyi meyvələr və bir kiloqram meyvənin qiymətinin gün ərzində dəyişdiyi diapazon diaqramda əyrilərlə məhdudlaşan sahələr şəklində göstərilmişdir. Məsələn, diaqramdan görünür ki, avqustun 14-də alınmış armudun qiyməti 1,2-1,5 lari arasında dəyişib.




*Növbəti iki suala bu diaqram əsasında cavab verin.*

Suallara keçid: 11 12

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **11.** Konserv zavodu avqust ayında cəmi neçə gün üç növ meyvə sifariş edib?

ა) 1

ბ) 3

გ) 5

დ) 7

Diaqrama baxmaq

(1) **12.** Avqust ayının günlərinin birində  fermer konserv zavoduna 200 kq alma və 200 kq armud təhvil verib və bunun üçün fabrik ona ümumilikdə 560 lari ödəyib. Fermer meyvəni hansı gündə təhvil verib?

ა) 8 avqust;

ბ) 9 avqust;

გ) 10 avqust;

დ) 11 avqust.

Diaqrama baxmaq

(1) **13.** Düzbucaqlı koordinat müstəvisində verilmiş $ABC$ bərabəryanlı üçbucağının $AC$ oturacağı $y$ oxuna paraleldir. $A$ təpəsinin koordinatları $(-2;\ 1)$, $B$ təpəsinin koordinatları isə – $(4;\ 3) - dür$. Bu üçbucağın oturacağına uyğun hündürlüyün oturacağın uzunluğuna olan nisbəti neçəyə bərabərdir?

ა) 1,5-ə;

ბ) 2-yə;

გ) 2,5-ə;

დ) 3-ə.

(1) **14.** $m$ və $n$ elə natural ədədlərdir ki, $\frac{n-1}{n} < \frac{m-1}{m}$. Aşağıda sadalanan əlaqələrdən hansı **<u>mümkün deyil?</u>**

ა) $m > n$

ბ) $n = \frac{m}{3}$

გ) $m = 2n$

დ) $n > m$

(1) **15.** Məlumdur ki,:

I. Anna yayda ya dağda, ya da dənizdə istirahət edəcək.

II. Əgər Anna yayda dağda istirahət edəcəksə, o dənizdə də istirahət edəcək.

Bu iki şərtdən hansı nəticəyə gəlmək olar?

ა) Anna yayda dənizdə istirahət edəcək;

ბ) Anna yayda dağda istirahət edəcək;

გ) Anna yayda dağda istirahət etməyəcək;

დ) Anna yayda dənizdə istirahət etməyəcək.

(1) **16.** $x,\ 2x,\ y,\ 7\frac{7}{10}$ ədədləri artan sıra ilə düzülmüşdür. Hər bir iki qonşu ədəd arasındakı fərq 2-dən azdır. $y$ sadalananlardan hansına bərabər ola bilər?

ა) 5,5-ə;

ბ) 5,7-yə;

გ) 5,8-ə;

დ) 6-ya.

(1) **17.** Oturacağının sahəsi 20 $sm^2$, yan üzünün sahəsi isə 12 $sm^2$ olan düzbucaqlı paralelepiped tilinin uzunluğu 2 sm olan bərabər kublara bölünmüşdür. Verilmiş düzbucaqlı paralelepiped neçə kuba bölünmüşdür?

ა) 12

ბ) 15

გ) 18

დ) 20

(1) **18.** Əgər verilmiş üçrəqəmli ədədin yazılışından son rəqəmi silsək alınan ikirəqəmli ədəd verilmiş üçrəqəmli ədəddən 715 vahid az olacaq. Verilmiş üçrəqəmli ədədin rəqəmlərinin cəmi nəyə bərabərdir?

ა) 16-ya;

ბ) 18-ə;

გ) 20-yə;

დ) 22-yə.

(1) **19.** Şəkildə verilən fiqurun formasına malik olan boş qabı su ilə doldururlar. Qaba bərabər vaxt aralıqlarında eyni miqdarda su axıdılır. Aşağıdakı diaqramlardan birində bu qabda suyun $h$ səviyyəsinin $t$ zamanına əsasən necə dəyişdiyi təqdim olunmuşdur. Bu diaqram hansıdır?





ა)



ბ)



გ)



დ)

# Məlumatların kifayət etməsi

(1) **20.** $x$ və $y$ – ədədlərdir.

İki şərt verilmişdir:

I. $3x < 3y - 2$

II. $5x < 5y + 2$

$x$ və $y$ ədədlərindən hansının daha böyük olduğunu müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(1) **21.** İki piramida və onlar haqqında iki şərt verilmişdir:

I. Hər iki piramidanın təpələrinin sayılarının cəmi 24-ə bərabərdir.

II. Birinci piramidanın üzlərinin sayı ikinci piramidanın üzlərinin sayından 4 ədəd çoxdur.

Birinci piramidanın tillərinin sayının ikinci piramidanın tillərinin sayından nə qədər çox olduğunu müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(1) **22.** Kitabın birinci, ikinci, üçüncü və s. səhifələri müvafiq olaraq natural ədədlərlə nömrələnmişdir: 1, 2, 3, ....

İki şərt verilmişdir:

I. Kitabın bütün səhifələrini nömrələmək üçün lazım olan rəqəmlərin ümumi sayı 192-yə bərabərdir.

II. Kitabın son iki səhifəsini nömrələmək üçün lazım olan rəqəmlərin ümumi sayı 5-ə bərabərdir.

Kitabın neçə səhifədən ibarət olduğunu müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(1) **23.** Düzbucaqlı paralelepiped formasında hovuzun dərinliyi 2 m 40 sm-ə bərabərdir. Hovuz iki boru vasitəsilə su ilə doldurula bilər. Birinci boru ilə hər saatda hovuza eyni miqdarda su axır , ikinci boru ilə də hovuza hər saatda eyni miqdarda su axır.

İki şərt verilmişdir:

I. Yalnız birinci borunun açılması ilə bir saat ərzində hovuzdakı suyun səviyyəsi yalnız ikinci borunun eyni vaxt ərzində açılması ilə olduğundan 30 sm çox olacaqdır.

II. Boş hovuzda yalnız birinci borunun açılması ilə bir saat ərzində suyun səviyyəsi yalnız ikinci borunun eyni vaxt ərzində açılması ilə olduğundan 2 dəfə çox olacaqdır.

Hər iki borunun açıq olduğu halda boş hovuzu doldurmaq üçün neçə saat lazım olduğunu müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **24.** Anna stolda düzülən kağızlardan bəzisini üçə, qalanlarını isə ikiyə kəsdi.

İki şərt verilmişdir:

I. Anna kağızların kəsilməsi nəticəsində cəmi 11 kağız parçası aldı.

II. Anna tərəfindən üçə kəsilən kağızların sayı təkdir.

Annanın neçə kağızı ikiyə kəsdiyini müəyyən etmək üçün:

ა) I şərt kifayətdir, II isə kifayət deyil;

ბ) II şərt kifayətdir, I isə kifayət deyil;

გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyil;

დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir;

ე) Verilən şərtlər birlikdə götürüldükdə də kifayət deyil.

(3) **25.** $A$ məntəqəsindən çıxan motosikletçi $C$ məntəqəsindən keçərək $B$ nöqtəsinə getməyə qərar verdi. Motosikletçi $C$ nöqtəsinə çatmağa 25 km qaldıqda fasilə verərsə, o, qət edəcəyi yoldan 2 dəfə az yol qət etmiş, C məntəqəsini keçdikdən 25 km sonra fasilə verərsə, getdiyi yoldan 3 dəfə az gedəsi olacaq. Motosikletçi A məntəqəsindən B məntəqəsinə çatmaq üçün nə qədər məsafə qət etməlidir?

Cavabınızı əsaslandırın.

(3) **26.** Hər bir xanası kvadrat olan bərabərtərəfli şəbəkədə təpələri şəbəkənin qovşaqları ilə üst-üstə düşən $ABC$ üçbucağı və $ACDE$ dördbucağı verilmişdir (şəkilə bax). $ACDE$ dördbucağının sahəsi $ABC$ üçbucağının sahəsindən neçə dəfə çoxdur?




Cavabınızı əsaslandırın.

(3) **27.** Ailə ana, ata və bir neçə uşaqdan ibarətdir. Ailə üzvlərinin yaşlarının ədədi ortası 18-dir. Ata olmadan ailənin qalan üzvlərinin yaşlarının ədədi ortası 14, ana olmadan isə 15-dir. Əgər atanın yaşı 38-dirsə, ananın neçə yaşı var?

Cavabınızı əsaslandırın.

(3) **28.** Saat 20-də otaqda eyni uzunluqda, lakin qalınlığı fərqli olan iki şam yandırdılar. Birinci şam bərabər şəkildə yanır və tamamilə yanması üçün 4 saat lazımdır. İkinci şam da bərabər şəkildə yanır, lakin, tamamilə yanması üçün 3 saat lazımdır. Hər iki şamı eyni vaxtda söndürdülər. Birinci şamın söndükdən sonra qalan hissəsinin uzunluğu ikinci şamın qalan hissəsinin uzunluğundan 2 dəfə çox olarsa, şamları saat neçədə söndürüblər?

Cavabınızı əsaslandırın.

(3) **29.** Altıncı sinif şagirdlərinə aşağıdakı işi təklif etdilər:

1) Hesablayın: I. $7{,}21 \cdot 3$ II. $5{,}31 \cdot 4$

III. $11011 : 11$ IV. $3208 : 8$

2) Hesablayın: $2\frac{1}{3} \cdot 3\frac{4}{7} + 2\frac{1}{3} \cdot 5\frac{3}{7}$

3) Üç qutudan birincisində ikinciyə nisbətən 3 kq və üçüncüyə nisbətən 5 kq az peçenye var, hər üç qutuda isə cəmi 44 kq peçenye var. Üçüncü qutuda neçə kiloqram peçenye var?

4) Birinci düzbucağın uzunluğu 150 sm, eni 18 sm, ikinci düzbucağın isə uzunluğu 50 sm, eni 36 sm-dir. Birinci düzbucağın sahəsi ikinci düzbucağın sahəsindən neçə dəfə böyükdür?

5) Mehmanxanada qalan 243 turistin hər biri inglis ya da alman dilində danışa bilir. 139 turist ingilis, 153 turist isə alman dilində danışa bilir. Mehmanxanada qalan nə qədər turist həm ingilis, həm də alman dillərində danışa bilir?

Növbəti səhifədə şagirdlərdən birinin hazırladığı iş verilmişdir:

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

1) I. $7{,}21 \cdot 3 = 21{,}63$ II. $5{,}31 \cdot 4 = 20{,}124$

III. $11011 : 11 = 101$ IV. $3208 : 8 = 401$

2) $2\frac{1}{3} \cdot 3\frac{4}{7} + 2\frac{1}{3} \cdot 5\frac{3}{7} = 2\frac{1}{3} \cdot 9 = 18 + 3 = 21$

3) $44 - 3 - 5 = 36$, $36 : 3 = 12$, Üçüncü qutuda $12 + 3 = 15$ (kq).

4) $150 : 50 = 3$ $36 : 18 = 2$ Birincinin sahəsi çoxdur $3 \cdot 2 = 6$ dəfə.

5) $243 - 139 = 114$, Hər iki dildə danışır $153 - 114 = 39$ turist.

- Şagird tərəfindən buraxılmış hər bir səhvi göstərin və düzgün şəkildə yazın.

# Akademik qabiliyyət

# Oxunmuş mətnin dərk edilməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*
*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

**1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35**

19-cu əsrdə fərdi halları araşdıran zaman  həkimlər bəzi uşaqların hərfləri tanımaqda çətinlik çəkdiyini aşkar etdilər. Bu fenomeni "söz korluğu" adlandırdılar. Bir inglis həkiminin qeydində oxuyuruq: “Atam 10 yaşlı bir oğlanın öyrənməkdə nə üçün çətinlikləri olduğunu müəyyən etməyim üçün mənim yanıma gətirdi. Oğlanın aydın dərrakəsi var idi ... Məlum oldu ki, o, oxumaqda çətinlik çəkirdi və bunun səbəbi görmə qabiliyyətinin zəifliyi deyil, sözləri yadda saxlamaqda anadangəlmə çatışmazlıq idi”. Sonralar disleksiyanın tərifi də bu fikrə əsaslandı - disleksiya oxu və yazmaqda çətinlikləri ehtiva edən inkişaf pozğunluğudur və bu çətinliklər intellektual qabiliyyətlərin çatışmazlığı və ya eşitmə və ya görmə pozğunluğu ilə izah edilə bilməz. Disleksiyanın səbəbi nə valideynlərin diqqətsizliyi, nə də ekran qarşısında çox vaxt keçirilməsi deyil, bu, baş beyinin natamam fəaliyyəti ilə izah olunur, ki bu da eşitmə və ya vizual məlumatların emalında çətinliklərə səbəb olur. Çox vaxt 20 uşaqdan ibarət bir sinifdə ən azı bir və ya iki uşaq oxşar çətinliklərlə üzləşir.

Bəzi hallarda disleksiya əlamətləri erkən uşaq yaşında özünü biruzə verir. Məsələn, disleksiyası olan uşaqlar başqalarının dediklərini başa düşməkdə çətinlik çəkirlər və ya onlar danışmağa gec başlayırlar. Həmçinin, onlar məkanda səmti müəyyənləşdirməkdə və əşyaların adlarını yadda saxlamaqda çətinlik çəkə bilərlər və s. Çox vaxt bu siqnallar diqqətdən kənarda qalır, çünki bu uşaqlar sanki öz həmyaşıdlarından heç nə ilə fərqlənmirlər. Məktəbdə oxumağa başlayan kimi məlum olur ki, cəhdlərinə baxmayaraq, yaşıdları kimi oxuya bilmirlər.

Suallara keçid: 30 31 32 33 34

Valideynlər, müəllimlər məyus olur, tez-tez şərhlər eşidilir: “Tənbəldir”, “istəsə edə bilərdi”... və uşaq özü də düşünür ki, “bacarmaz”, “kifayət qədər yaxşı deyil” ... onda məktəbə və ümumiyyətlə öyrənməyə qarşı mənfi münasibət formalaşır. Bir sıra araşdırmalar təsdiq edir ki, disleksiyası olan uşaqlar müəllimlərin və valideynlərin diqqətini oxumalarına görə deyil, davranış çətinlikləri və öyrənməyə həvəsinin olmaması səbəbindən cəlb edirlər.

Disleksiya xroniki bir vəziyyətdir və yaş artdıqca yox olmur. Lakin bu uşaqlara vaxtında və fərdi yardım göstərilsə, oxu bacarıqları yaxşılaşır və özündən narazılıq, perspektivsizlik, dostluq etmək və həmyaşıdları ilə ünsiyyət qurmaqda çətinlik çəkmək kimi uzunmüddətli nəticələrin qarşısını almaq olar.

Suallara keçid: 30 31 32 33 34

(1) **30.** Birinci abzasda qeyd olunan britaniyalı həkimin qeydini hansı fikrin arqumenti hesab etmək olar?

ა) Disleksiya fenomenini 19-cu əsrdə kəşf etdilər və onu "söz korluğu" adlandırdılar;

ბ) Disleksiya fenomeninə diqqət yetirən həkimlər onun beyin funksiyasının çatışmazlığı ilə izah olunduğunu hələ bilmirdilər;

გ) Disleksiyanın ilk tədqiqatçıları artıq bilirdilər ki, oxuma bacarığında olan çətinliklər intellekt çatışmazlığı ilə əlaqəli deyil;

დ) Disleksiyanı 19-cu əsrdə "söz korluğu" adlandırdılar, çünki o dövrdə bu fenomen görmə pozğunluğu ilə əlaqələndirilirdi.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

(1) **31.** Sadalananlardan hansı doğrudur?

ა) Məktəb yaşına qədər disleksiyanı aşkar etmək mümkün deyil, çünki disleksiyası olan uşaqlar yaşıdlarından heç nə ilə fərqlənmirlər;

ბ) Disleksiyası olan uşaqlar öyrənməyə həvəsiləri aşağı olduğundan akademik uğur qazana bilmirlər;

გ) Disleksiyası olan uşaqların davranış problemləri müəllimlər tərəfindən asanlıqla görünür, bu da disleksiyanın vaxtında aşkar edilməsini asanlaşdırır;

დ) Disleksiyası olan uşaqlar məktəbə girərkən çətinliklə üzləşirlər ki, bu da onlarda öz qabiliyyətlərinə qarşı şübhə yaradır.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **32.** Disleksiyası olan uşaqlar müvafiq və vaxtında dəstək almır, çünki:

ა) bu uşaqlar öyrənmək üçün kifayət qədər istəkli deyillər və onların davranış problemləri var;

ბ) bu uşaqlar dostluq edə bilmir və həmyaşıdları ilə ünsiyyətdə çətinlik çəkirlər;

გ) valideynlər və müəllimlər onların öyrənmə çətinliklərinin səbəbləri haqqında yanlış təsəvvürə malikdirlər;

დ) valideynlərin və müəllimlərin fərdi ehtiyaclara uyğun yardım göstərmək təcrübəsi yoxdur.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35

(1) **33.** Mətnə əsaslanaraq hansı suala cavab **<u>verə bilmərik</u>**?

ა) Disleksiyanın səbəbi nədir?

ბ) Disleksiya təxminən hansı tezliklə qarşımıza çıxır?

გ) Disleksiyası olan uşağa kömək etmək üçün konkret olaraq hansı strategiyalardan istifadə edə bilərik?

დ) Disleksiyaya xas olan oxu problemlərini tamamilə aradan qaldırmaq mümkündür ya yox?

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

(1) **34.** Disleksiyanın vaxtında aşkarlanması və müvafiq yardım vacibdir:

ა) Uşağın oxumaq problemlərini aradan qaldırmaq və müvafiq olaraq tənbəlliyin qarşısını almaq üçün;

ბ) Uşağın imkanları haqqında valideynlərin və müəllimlərin adekvat fikirlərini formalaşdırmaq üçün;

გ) Valideynlərin və müəllimlərin uşağın gələcək inkişafı haqqında məyus olmasının qarşısını almaq üçün;

დ) Uşağın oxu problemini yüngülləşdirmək və müşayiət olunan davranış və ya emosional çətinliklərin qarşısını almaq üçün.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

(9) **35. Analitik yazı**

*Dialoqlarla tanış olun:*

**Ana altıncı sinif şagirdi uşağını həkimin yanına konsultasiyaya apardı:**

*Həkim:* Yaxşı, indi rahat otur və səni nəyin narahat etdiyini mənə de...
*Uşaq:* Mən ....
*Ana:* Biz səhər yıxıldıq və ayağımızı incitdik.
*Həkim:* Yaxşı, ağrıyan yerini mənə göstər.
*Ana:* Budur, düz dizinin yanında; üstəlik şişib də.

**Müəllim məktəbin dəhlizində on ikinci sinif şagirdinin valideyni ilə qarşılaşır:**

*Müəllim:* Necəsiniz, İrakli nə fikirləşir, hara verir sənədlərini?
*Valideyn:* Tibbə veririk və çox həyəcanlanırıq.
*Müəllim:* İmtahanı müvəffəqiyyətlə verəcəyinizə şübhəm yoxdur...

*Veb-səhifələrin birindən çıxarış:*

"…Uşaqlarının yaxşı gələcəyini təmin etmək və ya onların inkişafı üçün bəzən valideynlər məsuliyyəti öz üzərlərinə götürməyə üstünlük verirlər. Uşaqlar isə problemlər qarşısında təksilah, qorunmasız qalırlar."

**Verilən mülahizələri dərk edin və müzakirə edin:**

- Verilən illüstrativ materialda hansı problem özünü göstərir?
- Bu problem cəmiyyəti hansı problemlər qarşısında qoyur?
- Problemi həll etmək üçün nə etmək olar? Deyəcəklərinizi ümumiləşdirin.

*Müzakirənizi dəstəkləmək üçün arqumentlər və müvafiq misallar gətirin. Mətn ən az 120 sözdən ibarət olmalıdır.*